Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

## Kino tariximizdən

# Şərqə doğru

(Əvvəli ötən sayımızda)

**II YAZI**

**Kino, həyat, insanlar yerində dayanmamışdılar. Biz İvanla "universitetin" ikinci kursuna keçdik. Bizim kinofabrik yeni "Mədən işçiləri İttifaqının 20 illiyi" adlı tarixi-inqilabi filmin çəkilişinə başladı. Bu filmin quruluşçu rejissoru A.Karin özünə rejissor assistenti seçərkən məni seçdi. Mənim qarşımda mürəkkəb vəzifə durdu: nəinki keçmiş həmkarlar ittifaqı fəallarını axtarıb çəkilişə cəlb etməli, həm də tarixi hadisələrin baş verdiyi yerlərdə çəkiliş aparmalı idim.**

İvanın da işləri pis getmirdi. Bu vaxta kimi o, fotoqrafiyanı, kinoaparatı öyrənmiş, müstəqil olaraq filmlər üçün titrləri çəkirdi. Ümumiyyətlə, o, əməlli-başlı operator köməkçisi olmuşdu. Buna görə də ona mənimlə birgə mürəkkəb olmayan sənədli çəkilişlər aparmağa icazə vermişdilər.

Kinoda iş, təbii ki, bizi şəhərin ictimai-siyasi və mədəni həyatına cəlb etdi. Biz Bakıya gələn məşhur sovet musiqiçiləri - bəstəkar R.Qliyer, pianoçu A.Qoldenveyzer, həm də fransız dirijoru Rene Batonun iştirakı ilə keçirilən simfonik konsertlərə gedirdik. Biz M.Qorkinin ədəbiyyat haqqında məruzələrini, V.Meyerholdun, K.Stanislavskinin teatr barəsində mühazirələrini, V.Mayakovskinin odlu-alovlu çıxışlarını böyük maraqla dinləyirdik.

Sergey Yeseninlə görüşlərimiz unudulmaz idi. "Bakinski raboçi" qəzeti redaksiyasında biz onun Şərq haqqında yeni şeirlərini fərəhlə dinləyirdik. Yesenin dəfələrlə bizim kinofabrikdə olmuşdu. O vaxt İvanla birgə "Yesenin Bakıda" kinoxronikasını çəkdik.

Yaradıcılığı təkmilləşdirmək üçün hərtərəfli kinematoqrafik təcrübə toplamaq vacib idi. Hollivudda böyük təcrübə məktəbi keçmiş tanınmış rejissor Leo Mur Bakıda olarkən mənə eyni zamanda inzibati işlə də məşğul olmağı məsləhət gördü. Mən onun "Gilan qızı" filmində böyük həvəslə qrupun direktor müavini işləməyə razılıq verdim.





Gilan qızı

İranın Gilan əyalətində kəndli üsyanı haqqında olan bu filmin quruluşu təşkilati işlərdə və kütləvi səhnələrin çəkilişlərində böyük əmək tələb edirdi. Avropa və Amerika kinosunu yaxşı bilən, ssenarist, yazıçı, kino haqqında bir neçə kitabın müəllifi olan rejissor Leo Mur (Muraşko - A.K.) kino istehsalı sahəsində biliyimi artırmağa kömək etdi.

Ola bilər ki, məhz buna görə kinofabrikimizin müdiriyyəti mənə "Köhnə və təzə" filminin epizodlarından birini Bakıda lentə almağa gəlmiş rejissor S.Eyzenşteynin çəkiliş qrupunda müvəqqəti işləməyi məsləhət gördü. Bizim fabrikin direktoru mənə dedi ki, S.Eyzenşteyni bir məsələ narahat edir: görəsən burada rus kəndli tipajlarından kütlə təşkil etmək mümkündürmü? Mənim üçün bu problem deyildi. Şamaxı rayonunda mən bir neçə rus malakanları kəndlərini tanıyırdım.

Əlbəttə, mən xoşbəxt idim. S.Eyzenşteynin adı məni həmişə həyəcanlandırırdı. Onun "Potyomkin" zirehli gəmisi" və "Oktyabr"ı məni ideya dərinliyi, cəsarətli montajı, görünməmiş obrazlı novatorluğu ilə heyran edirdi.

Mən işimi necə quracağım barədə düşünür, həm də qrupun qaldığı "Novaya Yevropa" mehmanxanasına inzibatçının yanına nə vaxt çağırılacağımı gözləyirdim. Dostum İvan da məşhur operator Tisseni görmək üçün mənimlə getməyi xahiş edirdi. Nəhayət, iki dost günlərin birində mehmanxanaya yollandıq.

C.Eyzenşteyn məni mehribanlıqla qarşıladı və inzibatçının yanına apardı. İnzibatçı çox kobud idi. O, məni sorğu-suala tutdu. Axırda dedi: "Mənə (o, belə də dedi: "mənə") xaç yürüşü üçün on iki ikona lazımdır! Adam hündürlüyündə!!! Qızılı örtükdə!!!"

- Bakıda belə ikonaları tapmaq mümkün deyil, - deyə mən boynuma aldım.

- Cəfəngiyat! - inzibatçı kəskin cavab verdi: - Sadəcə, siz belə böyük işlər üçün hələ yetişməmisiz.

Mən özümü güclə saxlayıb sakitcə dedim:

- Vaxt gələr böyürərəm. İkonaları çəkmək üçün Bakıya qrupu gətirəndə sizin başınız harada idi? Bura Şərq şəhəridir, burada bircə dənə də rus pravoslav kilsəsi yoxdur!

Bakı özünün parlaq Şərq ekzotikası və çoxlu günəşi ilə bir çox kinematoqrafçıları həmişə cəlb etmişdir. Bura natura çəkilişləri üçün rejissor qrupları gəlir, yerli kino işçilərinə - inzibatçı, rejissor, operator və işıqçı köməkçilərinə ehtiyac olduqlarını söyləyirdilər. Mən İvanla birgə heç bir işdən imtina etmirdik. Biz məşhur rejissor Y.Protazanovun qrupunda işləmişik. O vaxt həmin qrup "Qırx birinci" filminin səhnələrini Xəzərin sahilində çəkmək üçün bura gəlmişdi. Məşhur "Qırmızı şeytan balaları"nın quruluşçu rejissoru İ.Perestianinin qrupunda da çalışmışıq. Rejissor B.Mixinin o vaxtlar hay-küyə səbəb olmuş "Abrek Zaur" filmində də möhkəm işləməli olduq. Biz (mən qrup direktoru, İvan isə operator assistenti) tanınmış Azərbaycan rejissoru və aktyoru Abbas Mirzə Şərifzadənin "Hacı Qara" filminin quruluşunda iştirak etdik.

Bir çox istedadlı rejissorlarla, operatorlarla, aktyorlarla işləməyimiz bizim kinematoqrafik təcrübəmizi zənginləşdirirdi. Lakin yarı yolda qalmamaq üçün mən İvanla kinoxronika rejissorları və operatorları hazırlığı üzrə kurslara getdik.

Bizim kursant - kinoxronikaçılar qrupu Moskvanın bir çox kinofabriklərində oldu. Biz Xronikal-sənədli filmlər fabrikində hadisəli çəkilişlərin montaj prosesini öyrəndik. I Dövlətkinofabrikdə mən S.Eyzenşteynlə yenidən görüşdüm. Biz Bakıdakı görüşlərimizi xatırladıq. Yeri gəlmişkən, həmin inzibatçını Bakı ekspedisiyasından sonra işdən azad etdilər. Burada nəhayət ki, İvan məşhur kinooperator Eduard Tisse ilə tanış oldu.

"Mejrabpom-Rus" kinofabrikində biz V.Pudovkin, B.Barnet, Y.Jelyabujski kimi görkəmli rejissorların çəkilişlərində iştirak etdik. Moskvanın Dövlət Kinematoqrafiya Texnikumunda A.Roomun rejissorluq, İ.Boxanovun kinokadrın kompozisiyası üzrə mühazirələrini dinlədik.

Xüsusilə sovet sənədli kinosunun əsasını qoyan Dziqa Vertovla görüşlərimiz yadımızda qaldı. Onun məruzələri, söhbətləri və çıxışları kinoxronika sahəsində biliyimizi artırdı. Vertovun rəhbərliyi altında sənədli kino çəkilişlərində iştirak etmək bizə qismət oldu...

### BİZİM İMTAHANLAR

1928-ci il. Biz yenidən Bakıdayıq. Qarşımızda Xəzər dənizidir. Dalğaları yararaq torpedo kateri böyük sürətlə şütüyür. Bu mənzərənin fonunda bütün ekran boyu "Üç dəniz spartakiadası" yazısı görünür. Qara dəniz, Baltik və Xəzər dənizləri dənizçilərinin su-idman yarışlarına həsr olunmuş ilk müstəqil sənədli filmimiz belə başlanırdı. Bu işimizlə biz ilk imtahan verməli olduq: mən rejissor, İvan Manakov operator kimi.

Biz, keçmiş hərbi dənizçilər kimi, dənizə, donanmaya, onun gündəlik hərbi həyatına yaxşı bələd idik. Ona görə də filmdə maraqlı dəniz detallarını, dənizçi məişətinin şən səhnələrini göstərə bilmişdik. Eyni zamanda Qara dəniz, Baltik və Xəzər dənizçilərinin gərgin keçən idman mübarizəsini ekranda canlandırmışdıq. Biz bu filmi yeni "Debri-El" modeli olan kinoaparatla lentə almışdıq.

Daha bir imtahan. O illərdə Azərbaycan Kommunist Partiyası pambıq uğrunda inadlı mübarizə aparırdı. Respublikanın cənub rayonları - Muğan və Mil çölləri pambığın yetişdirilməsi mərkəzinə çevrilmişdi. 1928-ci ilin baharında min hektarlarla xam torpaqlarda pambığın cücərtiləri hər tərəfi yaşıl rəngə bürümüşdü. Birdən teleqraf və telefon Bakıya həyəcanlı xəbər gətirdi: Muğanda, Mürsəlli kəndinin yaxınlığında Kür çayı çəpərlənmiş torpaq bəndi dağıtmış və tarlaları su basmışdır. Pambıq məhv olmaq üzrədir!

Mən İvan Manakovla cənuba getdik. Budur, bizim kamera qarşısında məcrasından çıxıb hər yanı suya qərq edən dəli Kür. Onun bulanıq suları kəndli tikintilərini, meyvə ağaclarını və üzüm sahələrini yuyub aparmış, iribuynuzlu heyvanları və atları məhv etmişdir. Yarıya qədər suya qərq olmuş evlərdən birinin damında qorxudan özünü itirən adamlar - qocalar və uşaqlı qadınlar qışqırır, adamları köməyə çağırırlar.

İvan Manakovun operator sənəti sayəsində milyonlarla tamaşaçı bu dəhşətli kadrları gördü. Məlum oldu ki, bəndi quldur dəstəsi partladıb. Biz bu quldurları plyonkaya çəkdik. Quldurların bəlaya saldıqları yüzlərlə insanı xilas edən, kükrəyən Kürü ram edən kolxozçuların qəhrəmanlıq əməyinin kütləvi səhnələrini lentə aldıq. Beləliklə də, hadisəli materialı emosional sənədli filmə çevirə bildik.

Kənddə sinfi mübarizədən bəhs edən bu film "Mürsəlli daşqını" adı ilə Azərbaycan kino tarixinə daxil oldu.

### ŞƏRQƏ DOĞRU

Azərbaycanda sovet hakimiyyəti qurulandan 9 il sonra respublika hər il tanınmaz dərəcədə dəyişirdi. Azərbaycan Şərqin bir çox xalqları üçün parlaq nümunəyə çevrilmişdi.

O vaxtı həyatın özü Azərbaycan haqqında təbliğat filminin yaradılmasının vacibliyi fikrini irəli sürdü. Burada məqsəd ölkədəki nailiyyətləri nümayiş etdirməklə yanaşı, Şərq xalqlarına milli müstəqilliyə, azadlığa, ümumbəşəri tərəqqiyə gedən tarixi yolu göstərməkdən ibarət idi.

"Şərqə doğru" sənədli filminin ssenarisi belə yarandı. Ssenari Sovet Azərbaycanı, onun ilk onilliyi haqqında kinopoema kimi düşünülmüşdü. 1929-cu ilin yazında bizim çox da böyük olmayan çəkiliş qrupumuz (operator İvan Manakov, rejissor assistenti Əhməd Məmmədov) Azərbaycan üzrə kinoekspedisiyaya çıxdı. Biz çox böyük, uzun və çətin bir yol getdik. Marşrut belə idi: Xəzər sahilinin cənub-qərb subtropiklərindən Kiçik Qafqaz dağlarından keçərək şimala, Mərkəzi Qafqazın başı qarlı dağlarına kimi.

Kinoaparatımız qeyri-adi zəngin təbiət kadrlarını özündə qeyd edib. Ən əsası biz harada olurduqsa, hər yerdə yeniliklər görürdük. Dağlıq Laçın rayonunda ağsaqlı qoca iki öküzlə torpağı şumlayırdı. Yüz, min il əvvəl də torpağı belə şumlayırdılar... Birdən traktorun gurultusu eşidildi: iki "İnternasional" dağ rayonunun dərinliyinə inadla hərəkət edirdi. Adamlar bu gözəl maşınlara maraqla tamaşa edirdilər. Al bayraqlar göründü, nağara, düdük, kamança, saz səsi ətrafa yayıldı.

Qarabağda biz respublikada ilk komsomol toyunu çəkdik. Burada çoxlu gül-çiçək, musiqi vardı, insanlar şənlənirdilər. Gəncədə böyük bir bayramla qarşılaşdıq. Burada Zaqafqaziyada ən iri mahud fabrikinin açılışı oldu... Nuxada (Şəkidə - A.K.) biz böyük ipəkçilik kombinatının tikintisini, eyni zamanda milli teatrın və pedaqoji texnikumun təntənəli açılışını çəkdik.



Aydın Kazımzadə

Başı buludlara dəyən Xınalıq kəndində biz ilk kənd məktəbini gördük. Məktəbin 9-dan 90-a qədər yaşı olan 28 şagirdinin hamısı kağızda bu sözləri yazmışdılar: "Azərbaycan... Xoşbəxtlik..."

Bizim filmdə respublikanın ən iri tikintiləri - dəniz limanının, Culfa dəmiryolunun tikintisi, Muğan suvarma sisteminin açılışı öz kinematoqrafik təsvirini tapmışdır. Yenidən qurulmuş Bakı neft sənayesinin Avropada ən iri neft sənayesinə çevrilməsi, ilk dəniz neft mədənlərinin yaranması, neftayırma zavodları, institutlar, ən iri neftdaşıyan tanker donanması, Sovet İttifaqında ilk dəfə Bakı?Sabunçu elektrik dəmiryolunun salınması inandırıcı şəkildə göstərilmişdir...

Bizim filmdə azərbaycanlı qadının çadranı ataraq yeni həyat quruculuq yoluna cəsarətlə çıxması öz əksini tapmışdır. Bakının ictimaiyyəti, "Azdövlətkino"nun bütün kollektivi "Şərqə doğru" filminin ekranlara buraxılması gününü səbirsizliklə gözləyirdi. Əlbəttə, mən İvanla hamıdan çox həyəcanlı idik: Görəsən biz çəkdiyimiz böyük və qiymətli materialı montaj prosesində düzgün istifadə edə biləcəyikmi?

Deməliyəm ki, bəxtimiz gətirdi. "Azdövlətkino"nun dəvəti ilə görkəmli sovet rejissoru Pudovkin Bakıya gəldi. Kinofabrikdə direktorun məsləhəti ilə bizim filmə baxmağa razılıq verdi və gülə-gülə dedi:

Əgər müəlliflər etiraz etmirlərsə...

Baxış zalına mən ürək döyüntüsü ilə daxil oldum. Pudovkin məni yanında oturdub dedi:

- Sizin haqqınızda mənə məlumat veriblər. Maraqlı material çəkmisiniz. Bu çox vacibdir... Bəs operator hanı?

İvan yox idi, o, kinomexanikə kömək etmək üçün proyeksiya otağına keçmişdi.

Filmin ilk kadrlarından Pudovkin bərkdən öz razılığını, astaca isə öz tənqidi fikirlərini bildirirdi.

- Yaxşıdır, çox yaxşıdır... necə də gözəldir! Bunu harada çəkmisiniz? Əla mənzərələrdir!

Sonra mən tərəfə əyilərək astaca dedi:

- Çox uzadılıb, qısaldın...

Pudovkinin ani coşmasını mən heç vaxt unutmaram. Ekranda dağ kəndində dəfn mərasimini əks etdirən kadrlar gedəndə Pudovkin özünü saxlaya bilmədi:

- Siz nə edirsiniz, Makovski? Bu ki... dayanın, saxlayın! Bu dəfn mərasimi sizin nəyinizə gərəkdir? Siz demək istəyirsiniz ki, köhnə, vaxtı ötmüş nə varsa dəfn edilir. Lakin dəfni yox, əksinə, yeniliyi, yeniliyi göstərmək lazımdır! Bundan əvvəl siz xoşbəxt ananı beşik başında göstərmisiniz, ətrafında da fərəhlənən adamlar! Bax, bunu, bunu göstərin!

Davamı növbəti sayımızda

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*